# Azərbaycan Xalq Cümhuriyyətinin missioner təzyiqləri altında dəyişdirilmiş ilk dövlət bayrağı...

***Anar İsgəndərli:*** *"1918-ci ildə biz dövlət müstəqilliyimizi başqa ölkənin paytaxtında elan etdikdə bizə Qafqaz İslam Ordusu kömək etdi, ona görə də Cümhuriyyətin ilk bayrağı üzərində 8 guşəli ulduz əks olunan Osmanlı bayrağının bənzəri olan bayraq oldu"*

**Məlum olduğu kimi, noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də iştirak edib. Ölkə başçısı söylədiyi geniş nitqdə Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı diqqətçəkən fikirlər açıqlayıb.**

Cümhuriyyət tarixinə geniş münasibət bildirən Prezident İlham Əliyev BDU-nun Cümhuriyyət yadigarı olduğunu vurğulayıb.

O, həmçinin, tariximizin çoxları üçün gizli qalan bəzi məqamlarını da qeyd edib: "...Xalqımızın tarixi faciələrlə doludur. Biz nəyə görə uzun illər, əsrlər boyu müstəmləkə kimi yaşamışıq? Nəyə görə başqa dövlətlərin tərkibində yaşamışıq? Nəyə görə bizim dövlətçiliyimizin tarixi çox məhduddur? O vaxt hətta müstəqil dövlətlər olanda onların da imkanları məhdud idi. Elə götürək Azərbaycan Xalq Cümhuriyyətini, ölkəni idarə edə bilmirdi. Xarici hərbi missiyaların rəhbərləri qərarlar qəbul edirdilər. Hətta bizim o vaxt qəbul edilmiş birinci dövlət bayrağımız xarici hərbi missioner tərəfindən dəyişdirildi. Ultimatum qoyuldu, tarixçilər bunu yaxşı bilirlər. Müstəqil dövlətin rəhbərliyinə ultimatum qoyuldu ki, siz bu bayrağı dəyişdirməlisiniz və dəyişdirdilər. Ondan sonra indiki üçrəngli bayraq təsis edildi. Ona görə hətta o dövrlərdə müstəqillik yarımçıq idi, natamam idi...".

Prezident İlham Əliyevin "hətta bizim o vaxt qəbul edilmiş birinci dövlət bayrağımız xarici hərbi missioner tərəfindən dəyişdirildi. Ultimatum qoyuldu, tarixçilər bunu yaxşı bilirlər" fikrini şərh edən tarixçi-alim, Cümhuriyyət dövrünün ciddi araşdırıcısı, professor Anar İsgəndərli "Bakı-Xəbər"ə bildirdi ki, həqiqətən də Cümhuriyyətin ilk bayrağı xarici missioner tərəfindən dəyişdirilib. Bu dəyişdirilmənin səbəblərini izah edən A.İsgəndərlinin sözlərinə görə, bu, bayrağın Osmanlı bayrağına bənzəməsi ilə bağlı olub. "1918-ci il iyunun 21-də bayrağımız qəbul olundu. Birinci bayrağımız eynən Osmanlı bayrağının oxşarı idi. Sadəcə, Osmanlı bayrağında beş guşə idi, bizim bayraqda isə səkkiz guşə əks olunmuşdu. Cümhuriyyətin bayrağı 1918-ci ilin noyabr ayının 9-na qədər bu bayraq olub. 1918-ci il noyabrın 9-da isə üçrəngli bayraq qəbul olundu. Cümhuriyyətin birinci bayrağı ilə bağlı təhdid nədən ibarət idi? Bizi təhdid edən qüvvələr iddia edirdilər ki, belə bir xalq yoxdur, belə bir xalqın müstəqil dövləti ola bilməz, bu, sadəcə olaraq, Osmanlı dövlətinin bir hissəsidir, az qala bayrağı da Osmanlı bayrağıdır. Amma hələ 1907-ci ildə Əli bəy Hüseynzadə bizim üçrəngli bayrağımız haqqında "Fyuzat" jurnalında bəhs etmişdi. O, "bizim gələcəkdə olan Cümhuriyyətin bayrağı necə olmalıdır? 1.Türk hissiyyatlı. 2. İslam etiqadlı. 3. Avropa (firəng) qafalı" - deyə yazırdı. Ondan sonra bu fikri Ziya Göyalp inkişaf etdirdi və ən nəhayət, 1915-1916-cı illərdə Rəsuzadə "Açıq söz" qəzetində bu formanı saxladı və bayraqda olan zolaqlarda dəyişiklik etdi. Yəni birinci rəng türkçülük, ikinci rəng müasirlik, üçüncü rəng isə islamçılıq. Amma ona qədər isə Əli bəy Hüseynzadədə də, Ziya Göyalpda da türkçülükdən sonra islamçılıq gəlirdi, Rəsulzadənin xidməti o oldu ki, yerləri dəyişdi. Demək istəyirəm ki, hələ Cümhuriyyət elan edilməmişdən bir neçə il əvvəl üçrəngli bayraq var idi. Amma 1918-ci ildə biz dövlət müstəqilliyimizi başqa ölkənin paytaxtında elan etdikdə bizə Qafqaz İslam Ordusu kömək etdi, ona görə də Cümhuriyyətin ilk bayrağı üzərində 8 guşəli ulduz əks olunan Osmanlı bayrağının bənzəri olan bayraq oldu".



*"Osmanlı və Antanta qüvvələri arasında düşmən münasibətlər olduğu üçün, bizə qarşı təhdidlər də olub"*

A.İsgəndərli qeyd etdi ki, Osmanlı qüvvələri 1918-ci il noyabrın 10-da Bakını tərk etməli idi. Onun sözlərinə görə, 1918-ci il oktyabrın 30-da Mudrost müqaviləsinə əsasən, Osmanlı məğlub dövlət idi və Osmanlı qüvvələri Cənubi Qafqazdan, o cümlədən, Azərbaycandan çıxmalı idi. "Bura isə Antanta qüvvələri daxil olmalı idi. Antanta qüvvələrini də burada ingilislər təmsil edirdilər.

Ənzəlidə olan general Tomson Bakıya daxil oldu və noyabrın 17-də o, Bakıya gəldikdə ilk dəfə olaraq üçrəngli bayraq Bakı vağzalında qaldırılıb. Azərbaycan Xalq Cümhuriyyəti üçrəngli bayrağı qaldırmaqla onlara göstərmək istədi ki, Azərbaycan müstəqildir və bizim gücümüz də var. General Tomson əvvəlcə müstəqilliyimizi tanımasa da, dekabrın 28-də dedi ki, Fətəli Xan Xoyski başda olmaqla mən bu hökuməti tanıyıram. Təbii ki, Osmanlı və Antanta qüvvələri arasında düşmən münasibətlər olduğu üçün, bizə qarşı təhdidlər də olub.

Bir tarixçi kimi bu məsələnin mahiyyətini izah etdim və hesab edirəm ki, izahım müəyyən məsələlərə aydınlıq gətirdi. Cümhuriyyət yeni qurulmuş dövlət idi və belə məsələlər oldu və olmalı idi də" - deyə A.İsgəndərli qeyd etdi.

***İradə SARIYEVA***